*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 469-474*
https://doi.org/10.62837/2024.3.469

**MƏMMƏDOVA GÜLNAR ADIL**
*Bakı Slavyan Universiteti (BSU)*
*Bakı şəhəri, S.Rüstəm küç., 33.*
*E-mail: gulnarmemmedova05@gmail.com*

# M.F.AXUNDOVUN HƏYAT VƏ YARADICILIĞININ TƏDRİSİNİN ŞAGİRDLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA ROLU

**Açar sözlər:** M.F. Axundov, dramaturgiya, tədris;
**Keywords:** M.F.Akhundov, dramaturgy, education;
**Ключевые слова:** Ахундов, драматургия, учение;

Klassik sənətkarların irsinin öyrənilməsi,elmi əsərlərin təhlil və sistemli tədqiqi, söylənilən fikirlərin elmilik və müasirlik baxımından qiymətləndirilməsi çağdaş ədəbiyyatşünaslığın və müasir tədrisin aktual məsələlərindən biridir. Azərbaycan özünün siyasi-dövlət müstəqilliyini bərpa etdikdən sonra milli bədii təfəkkürün inkişaf tarixində xüsusi mövqeyi olan böyük sənətkarların yaradıcılığının öyrənilməsi məsələsinə ciddi diqqət yetirilir. Belə görkəmli sənətkarlardan biri də yeni dövr Azərbaycan ədəbiyyatının banisi Mirzə Fətəli Axundovdur. M.F.Axundov yaradıcılığı və şəxsiyyəti həmişə milli humanitar və ictimai elmlərin diqqət mərkəzində olmuş, təkcə ədəbiyyatşünas alimlər deyil, filosof,dilçi,iqtisadçı mütəxəssislər də bu görkəmli şəxsiyyətin ictimai fikir tarixində mövqeyi, həyat yolu, ictimai, fəlsəfi görüşləri haqqında qiymətli elmi fikirlər söyləmişlər. Ancaq M.F.Axundov ilk növbədə yazıçı-dramaturq və nasir olduğundan onun həyat və yaradıcılığı daha çox ədəbiyyatşünas alimlər xüsusilə də ədəbiyyat tarixçiləri və mətnşünaslar tərəfindən tədqiq edilmişdir.

Tədqiqatın məqsədi M.F. Axundovun həyat yaradıcılığının tədrisinin şagirdlərin dünyagörüşünün formalaşmasında hansı rol oynadığını , yazıçının bədii əsərləri vasitəsi ilə onlara ədəbi və maarifçi fikirləri necə ötürdüyünü müəyyən etmək və araşdırmaqdan ibarətdir.

M.F.Axundzadənin bədii yaradıcılıq metodunun tipinin müəyyənləşdirilməsi ədəbiyyatşünaslıqda mübahisəsiz ötüşməmişdir.Yazıçının yaradıcılıq metodu müəyyənləşdirilməsi yolunda tədqiqatçıları iki qrupa ayırmışdır. Dramaturqun əsərlərində tənqidi pafosun qabarıq olduğunu əsas tutan tədqiqatçılar Axundzadə realizmi kimi dəyərləndirdilər. Bu fikirlə razılaşmayan tədqiqatçılar isə ədibin yaradıcılıq metodunun sırf maarifçi realizm tipi olduğunu sübut etməyə çalışırdılar.

Qeyd edək ki,tədris zamanı Axundov yaradıcılığının tənqidi realizmə və ya maarifçi realizmə aid edilib-edilməməsi problemin özünün də şagirdlərə çatdırılması

onların ədəbi metodlar, cərəyanlar haqqında dünyagörüşünün formalaşmasına ciddi təsir edən vasitə ola bilər

Yaşar Qarayev "Realizm: sənət və həqiqət" monoqrafiyasında "Axundov maarifçi realistdir yoxsa maarifçilik dövrünün tənqidi realistidir?!" sualına aydınlıq gətirməyə çalışmışdır. "Maarifçi realizmsiz" maarifçilik ədəbiyyatından danışmağı "qəribə vəziyyət" sayır və doğru deyir ki, Mirzə Fətəlinin yaradıcılıq metodu "tənqidi realizm kimi təhlil edildikdə bu realizm bir sıra məziyyətlərini itirir". O, bəzi tədqiqatçılardan əksinə olaraq, Mirzə Fətəli əsərlərinin bədii metod və üslub xüsusiyyətlərini, sənətkarlıq məsələlərini "tənqidi realizm" prinsipləri ilə deyil," "maarifçi realizm" adı altında təhlil edir

Yuxarıda qeyd edildiyi kimi təhsilalanlar əvvəlcə M.F.Axundov dramaturgiyasının inkişaf yollarını, M.F.Axundov dramaturgiyasının sənətkarlıq məsələlərini dərk etməli və mənimsəməlidir: 70-80-ci illər M.F.Axundov dramaturgiyasına həsr olunmuş əsərlərdə yazıçının ictimai-estetik idealı məsələsi mərkəzdə olmuşdur. Bir çox tədqiqatlarda M.F.Axundzadə maarifçilik ideallarını canlandırdığı müsbət surətlərin, obrazların simasında cəmləşdirmişdir"mülahizəsi vurğulanır: "Şahbaz bəy, Teymur ağa, Hacı Nuru obrazları yazıçının estetik idealını təmsil edir.

Dövrün son araşdırma və tədqiqatlarında isə bu məsələyə, problemə fərqli fikir və yanaşnalar olmuşdur. Buna nümunə olaraq C.Yusifli Axundovun əsərlərində müsbət idealın təcəssümü olan müsbət qəhrəman məsələsini "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası əsasında belə şərh edir ki "Şahbaz bəy əsərdə müəllif diqqətinə layiq xarakter deyil və müəllifi dərindən maraqlandırmır. Müəllif oxucu və tamaşaçıları Müsyö Jordanın bir sözüylə Fransaya getmək eşqinə düşən Şahbaz bəyin aqibətiylə yox, bu iki əks qütbün ətrafında cərəyan edən hadisələrin nəticəsiylə ibrətləndirmək məqsədini güdür. Obrazlar haqqında yaranmış müxtəlif fikir ideyaları istər mənfi istərsə də müsbət müəllimin özü fikrini söyləməmişdən əvvəl hər bir şagirdə müstəqil şəkildə öz fikrini, mülahizəsini izah etməsi üçün şərait yaratmalıdır və dərs zamanı müxtəlif təlim metodlarından (BİBÖ, Klaster, Kub,Beyin həmləsi və s.) istifadə etməklə dərsi daha səmərəli, aktiv, düşündürcü təşkil edib şagidlərin diqqətini özünə yönəldə bilər.Əsərlərin təhlili vasitəsilə müəllimlər şagirddə təfəkürlə bağlı səriştəni xüsusilədə tənqidi təfəkkürlə bağlı səriştəni formalaşdırmalıdır. Tənqidi təfəkkür dedikdə hansısa obrazın ancaq pis cəhətini vurğulmaq demək deyil. Tənqidi təfəkkür odur ki, nəyəsə obyektiv bir münasibət göstərir. Yəni tənqidi təfəkkür o mənaya gəlmir ki, bu obraz mənfidir deyib kənara çəkilim. Obrazı bəyənməyə bilərsən ancaq əsaslar gətirməlisən ki, niyə mənfi görürsən bu obrazı və yaxud niyə bəyənmirsən həmçinin irəli sürdüyün əsaslar doğru olmalıdır, qərəzli olmamalıdır.Müəllim sinifdə hər bir şagirddə tənqidi təfəkkür səriştəsini formalaşdırmağı bacarmalıdır. Bunu isə elə Axundovun əsərlərini yaxud əsərlərindən birini keçəndən sonra şagirdlərə beyin həmləsi edir, müzakirə yaradır bu

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 469-474*
obraza sizin nə münasibətiniz var? Bu obrazın müsbət və mənfi cəhətləri hansılardır. Bundan başqa müəllim Axundovun iki əsərini verib, bu əsərlər arasında oxşar və fərqli cəhətləri tapmağı ev tapşırığı kimi verməklə şagirddə bu səriştəni formalaşdıra bilər. Bununla şagird öz fikrini əsaslandırmağı bacarır. Yəni hansısa obraza mənfi deyib, susmaqla kifayətlənmir onu əsaslandırmağı da bacaraır.

Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan M.F.Axundovun əsərlərinin tədrisi həmişə diqqət mərkəzindədir. Onun mövzularının müasirliyi həmişə yaşarlığı daimi araşdırılmalıdır. Axundovun dram əsərlərində maarifçiliyə qarşı çıxan avam, cahil obrazlara toxunulmuşdu. Azərbaycan ədəbiyyatında daha çox dramaturgiyanın görkəmli nümayəndəsi hesab olunan M.F.Axundovun dram yaradıcılığında maarifçilik görüşləri də öz geniş əksini tapıb.

“Komediyalarının adı dil baxımından hər nə qədər mürəkkəb olsa, ibarələrlə yazılsa da, əsərlərin mətn dili sadə danışıq dilində, dramatik növün tələblərinə uyğundur. Bu komediyalarda M.F.Axundov xalqı aldadan, fırıldaqçıları, yalançı cadugərləri, ara düzəldənləri, bir-birimi tanımayan insanları evləndirərək, sevənləri ayırma cəhdlərini, ədalətsiz idarə üsulunu, din adından hökmlər irəli sürən molla, dərviş və qazıları ifşa edir. M.F. Axundovun şeir və komediyaları hələ öz sağlığında rus dilinə tərcümə olunaraq Rusiya mərkəzi mətbuat orqanlarında çap olunmuşdu. Komediyaları Azərbaycandan əvvəl Peterburqada, Tiflisdə rus dilində tamaşaya qoyulmuşdu” (4,127-128).

M.F.Axundovun yaratdığı, öz dövründə Rusiya və Qərbi Avropada nəşr olunmaqla yanaşı, tamaşaya da qoyulmuş milli mədəniyyətimizin inciləri hesab edilən altı komediyasının ən mükəmməli «Sərgüzəşti mərdi xəsis» (Hacı Qara) pyesidir. Əli Sultanlının: ««Hacı Qara» həyat həqiqətlərini dərindən əhatə etməsi, bədii keyfiyyəti, dramaturji quruluşu etibarı ilə M.F.Axundovun və eyni zamanda Azərbaycan komediyasının şah əsəridir» (5,113) qənaəti peşəkar teatr tariximizin ilk tamaşasının bədii mətn səviyyəsinin təsdiqidir .

“Komediyadakı mühüm dramaturji hadisələrin hərəkətverici qüvvəsi isə pul qazanmaq tələbatından irəli gəlir. Odur ki, mübarizənin mərkəzində dayanan pul gözə görünməsə də, dramaturji hadisəlilik prinsipinin əsas hərəkətverici qüvvəsinə çevrilir. Bu məqamı böyük həssaslıqla tutmuş Feyzulla Qasımzadənin: «Sərgüzəşti mərdi xəsis» komediyasında dramatik konflikt iki əsas hadisə üzərində davam edir. Bunlardan biri Heydər bəyin pul tapıb öz nişanlısı Sona xanımla evlənmək istəməsi, digəri isə Hacı Qaranın bazar kasadlığından çəkdiyi yüz manat zərəri doldurmaq üçün qaçaq mal alverinə getməsidir” (2,182)

Cəfər Xəndanın yazdığı kimi: “İlk əsərlərindəki mülahizələrinə görə ona elə gəlirdi ki, guya varlılar–yoxsullar, zalımlar-məzlumlar kimi sinfi ictimai fərqlərin əsl səbəbi insanın fitrətindədir. Odur ki, gənc yazıçı zalımları ədalətli olmağa çağırır, varlıları yoxsullara kömək etməyə dəvət edir və bu yolla insanların islah olacağına

inanır. Yaxşılığa yamanlıq edənlər, səmimi məhəbbəti tapdalayanlar haqqında düşünərkən Cabbarlı belə bir nöqtəyə gəlir ki, ədalətsizlik insanın özündədir. Onu təlim yoluyla düzəltmək mümkündür. Aydın məsələdir ki, həyatı idrak işindəki bu yanlışlıq istənilən nəticəni verə bilməzdi tənqidin inqilab yoluna üstünlük verməsi göz qabağındadır. Məhz buna görə də arzu və istəklərinə çatmayan gənc ədibdə bəzən ictimai məsələlərin həllindəki acizlikdən doğan bədbinlik əhvali–ruhiyyəsi də nəzərə çarpır. O, həyata üsyan edir, kimsədə yaxşılıq görmür, ədalət divarı axtarır, həqiqəti görmək istəyir" (1,7)

"Hacı Qara"da Mirzə Fətəli feodalizmin dağıldığının və yeni ticarət burjuaziyasının nə qədər bir hərisliklə həyata can atdığını təsvir edir yazan Cəfər Cabbarlının fikrini davam etdirən Şükufə Mirzəyevanın: "Gerçəkliyin əksi məsələsinə Axundov dəyişən və inkişaf edən gerçəklik meyarından baxırdı"(3,132) müşahidəsi dramaturji strukturdakı zaman-məkanın dinamizmini göstərir. «Hacı Qara»da bəy zümrəsindən olan Heydər bəylə onun dostlarının Hacı Qarayla, bu sövdəgərin öz nökəri Kərəməli ilə sinfi, erməni və tatarlar arasında milli, bütövlükdə məzlum yerlilərlə işğalçı gəlmə ruslar arasında isə qlobal ziddiyəti təqdim olunur. Zorakılıq hesabına dünyanın yenidən bölüşdürülməsi fonunda cərəyan edən hadisəlilik bütöv bir epoxanın portretini yaradır. Bu proses o dövrdə artıq Avropada formalaşmaqda olan azadlıq ideyasının eyni zamanda insan haqlarının təsirindən doğan milli təfəkkürün oyanışının, demokratizmin formalaşmasının təsdiqi kimi müəllifin fərdi üslubunun rüşeymləri hesabına bu günümüzdə də yeni mənalar kəsb edə bilir.

M.F.Axundov yaradıcılığı Şagirdləri dram janrının yaranması, keçdiyi tarixi inkişaf mərhələsi və ictimai fikir tarixində rolu ilə ilə tanış etmədə misilsiz rol oynayır.

## ƏDƏBİYYAT

1. Xəndan C. tənqidi realizm prinsipləri– A.D.)». C.Cabbarlının həyat və yaradıcılıq yolu.B.,1954,s.7
2. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. B., "Elm və təhsil", 2017,s.552
3. Mirzəyeva Ş. M.F.Axundov.B.,1962,s.132
4. Məmməd.T.19 cu əsr Azərbaycan ədəbiyyatı 1ci hissə,B.,2010,s.162
5. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. B.,1964,s.113

## M.F.Axundovun həyat və yaradıcılığının tədrisinin şagirdlərin dünyagörüşünün formalaşmasında rolu

## XÜLASƏ

**Məmmədova.G**

Məqalədə Azərbaycan dramaturgiyasının keçdiyi inkişaf yolu və onun görkəmli nümayəndələri araşdırılır. M.F.Axundovun Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklər öz əksini tapmışdır.Onun dramatik əsərləri sayəsində şagirdlərdə əsəri təhlil etmək, qəhrəmanları bir-birindən ayırmaq bacarığının inkişaf etdiriləcəyi bildirilmişdir. M.F.Axundovun Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklər şagirdlərin dünyagörüşünün formalaşmasında böyük rol oynadığı qeyd olunmuşdur.Onun dramatik əsərləri sayəsində şagirdlərdə əsəri təhlil etmək bacarığı formalaşır.Bu əsərlər vasitəsilə şagirdlər qəhrəmanları bir-birindən ayıra bilir.Əsərlərin təhlili vasitəsilə müəllimlər şagirddə təfəkürlə bağlı səriştəni xüsusilə də tənqidi təfəkkürlə bağlı səriştəni formalaşdırmalıdır. Tənqidi təfəkkür dedikdə hansısa obrazın ancaq pis cəhətini vurğulmaq demək deyil. Tənqidi təfəkkür odur ki, nəyəsə obyektiv bir münasibət göstərir.

Məqalə M.F.Axundovun dramaturgiyasının Azərbaycan ədəbiyyatında tutduğu yerə və onun dramaturgiya əsərləri ilə gətirdiyi böyük yeniliklərin tələbələrə çatdırılması yollarına həsr edilmişdir.

## THE ROLE OF TEACHING M.F. AKHUNDOV'S LIFE AND CREATIVITY IN SHAPING THE WORLDVIEW OF STUDENTS.

## SUMMARY

**MEMMEDOVA GULNARA**

The article explores the development path of Azerbaijani dramaturgy and its prominent representatives. It is noted that M.F. Akhundov's innovations in Azerbaijani literature have left a significant mark. Thanks to his dramatic works, it has been stated that students will develop the ability to analyze the work and distinguish between its characters. Akhundov's innovations in Azerbaijani literature have been highlighted for playing a major role in shaping students' worldview. Through his dramatic works, students develop the skill of analyzing literature, enabling them to distinguish between characters. Through the analysis of these works, teachers should encourage students to develop critical thinking, particularly regarding literary criticism. Critical thinking does not mean merely highlighting the negative aspects of a character. It means showing an objective attitude towards something. The article is dedicated to the place of M.F. Akhundov's dramaturgy in Azerbaijani literature and the ways his dramatic works have brought significant innovations to students.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 469-474*

# РОЛЬ ОБУЧЕНИЯ ЖИЗНИ И ТВОРЧЕСТВА М.Ф. АХУНДОВА В ФОРМИРОВАНИИ МИРОВОЗЗРЕНИЯ УЧЕНИКОВ

## РЕЗЮМЕ

**МАММЕДОВА Г.**

В статье исследуется путь развития Азербайджанской драматургии и ее выдающиеся представители. Отмечается, что инновации, которые М.Ф.Ахундов внес в Азербайджанскую литературу, нашли свое отражение. Благодаря его драматическим произведениям было объявлено о развитии способности учеников анализировать произведение и разделять персонажей друг от друга. Отмечается, что инновации, которые М.Ф.Ахундов внес в Азербайджанскую литературу, сыграли большую роль в формировании мировоззрения учеников. Благодаря его драматическим произведениям формируется навык анализа произведения у учеников. Благодаря этим произведениям ученики могут отделять персонажей друг от друга. Через анализ произведений учителя должны формировать в ученике способность к размышлению, особенно к критическому мышлению. Когда говорят о критическом мышлении, это не означает просто подчеркивание какого-либо негативного аспекта образа. Критическое мышление - это проявление объективного отношения к чему-либо. Статья посвящена месту драматургии М.Ф.Ахундова в Азербайджанской литературе и способам передачи его великих инноваций студентам.

**Rəyçi:** **dos.F.V.Musayeva**